Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Firidun bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası



# ƏLİLLİK QÜSUR DEYİL

*Biz hər birimiz fərqliyik, amma*
*hamımızın hüququmuz eynidir*

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Firidun bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

# ƏLİLLİK QÜSUR DEYİL

*Respublika Uşaq kitabxanaları
üçün tövsiyə biblioqrafiyası*

**Bakı-2019**

**Tərtibçi:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul**: **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Əlillik qüsur deyil:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2019.- 47 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# Tərtibçidən

Hər bir insan rahat, firavan və ən əsası, sağlam yaşamaq istəyir. Amma bu təbii istəkdən ömürlük məhrum olan, əlil insanlar da var. Fiziki qüsurları olan belə insanlar həyatda öz yerlərini tapmaqda, konkret sənətə yiyələnməkdə, yaxud istedad və peşə bacarıqlarını ifadə etməkdə çətinliklərlə üzləşirlər.

Azərbaycanda əlilliyi olan 400 mindən çox insan var. Bunların bəziləri cəmiyyət içərisində görünsələr də bəziləri isə evdə qapalı şəraitdə yaşayırlar. Biz öz həyatımızı özümüz yazıb və oynamırıq. Bu həyat teatrdır və bizlər də bilmədiyimiz ssenarilər əsasında rollarda oynayan aktyorlarıq. Həmçinin, fiziki qüsurlu olmağımızı biz secmirik. Hər bir sağlam insan bir anda bir qəza vasitəsilə gözlərini itirərək dünya işiğından, ayaqlarını itirərək isə yerimədən məhrum ola bilər. Biz gündəlik həyatımızda belə insanlarla rastlaşırıq. Dar düşüncəli insanlarımız belələrini görəndə gülüb keçirlər, bəziləri isə o insanları görəndə göz yaşlarına hakim ola bilmirlər.

Təəssüflər ki, müasir cəmiyyətdə belə insanların fərqliliklərini dərk etməkdə aciz olan fikri qüsurlulara görə, belə insanlara dünyada nəzər nöqtəsi ağ-qara rənglərdən kənara çıxmır və onlar kəşf olunmamış gövhərlər kimi qalırlar. Bir fərd olaraq hər birimizin borcudur ki, onlara bu cəmiyyət üçün lazım olduqlarını və önəm verildiklərini hiss etdirək, həmçinin bu fikirləri gələcək nəsillərə aşılayaq.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **"Əlillik qüsur deyil"** adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyyə olunan ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88,
**E-mail:** info@clb.az.

# Əlillərin sosial müdafiəsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında əlillər barəsində dövlət siyasətini müəyyən edir, cəmiyyət həyatının iqtisadi, siyasi və sosial sahələrində iştirak etmək üçün əlillərin bütün başqa vətəndaşlarla bərabər imkanlar almasına, onların öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə dolğun həyat sürməsinə kömək göstərən lazımi şəraitin yaradılmasına təminat verir.

## I. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əlillərin hüquqi vəziyyətinin əsasları**

Azərbaycan Respublikasında əlillər BMT Baş Məclisinin qəbul etdiyi əlillərin hüquq bəyannaməsində, Azərbaycan Respublikasının Konstitusiyasında, bu Qanunda və başqa qanunvericilik aktlarında təsbit olunmuş bütün sosial-iqtisadi, siyasi, şəxsi hüquq və azadlıqlara malikdirlər.

Əlillər barəsində ayrı-seçkilik qadağandır və qanunla təqib edilir.

Maddə 2. **"Əlil" anlayışı**

Fiziki və ya xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs əlil sayılır.

Şəxsin həyat fəaliyyətinin məhdudlaşması onun özünəxidmət, hərəkət, səmtlənmək, ünsiyyət, öz davranışına nəzarət, habelə əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini və ya imkanını tamamilə və ya qismən itirməsində təzahür edir.

Maddə 3. **Şəxsin əlil sayılması**

Şəxs həkim-əmək ekspert komissiyası tərəfindən ekspert müayinəsindən keçirildikdən sonra müvafiq rəy çıxarılması yolu ilə əlil sayılır.

Həkim-əmək ekspert komissiyası haqqında əsasnaməni, əlillik qrupunun və səbəbinin müəyyənləşdirilməsinə dair əsasnaməni Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

Həkim-əmək ekspert komissiyasının rəyi əlillik qrupunu və səbəbini, habelə fərdi bərpa proqramını təsdiq edən rəsmi sənəddir.

Əlilə vəsiqə verilir. Vəsiqənin formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti əlillərin ictimai təşkilatları ilə razılaşdırmaqla təsdiq edir.

Maddə 4. **Əlilliklə bağlı tələbatın müəyyənləşdirilməsi**

Əlilliklə bağlı tələbatın müəyyənləşdirilməsi qaydası və şərtləri tibbi-sosial ekspertiza rəyinə əsasən və əlilin peşə və məişət fəaliyyəti qabiliyyəti nəzərə alınmaqla təyin edilir. Əlilin zəruri sosial müdafiəsinin növləri və həcmləri tibbi, sosial-əmək bərpasına və uyğunlaşmasına dair fərdi proqram şəklində təqdim olunur.

Maddə 5. **Əlilləri sosial müdafiə fondu**

Əlilləri sosial müdafiə işlərini (pensiya təminatı istisna olmaqla) Azərbaycan Respublikasının əlilləri sosial müdafiə fondu maliyyələşdirir.

Fond haqqında əsasnaməni Azərbaycan Respublikasının Nazirlər Kabineti əlillərin respublika ictimai təşkilatlarının rəyini nəzərə almaqla təsdiq edir.

Azərbaycan Respublikasının əlilləri sosial müdafiə fondunun büdcəsi respublika büdcəsinin vəsaiti, təşkilatların, əmək kollektivlərinin və vətəndaşların ianələri, başqa vəsait, o cümlədən fondun qüvvədə olan qanunvericiliklə qadağan edilməmiş sahibkarlıq fəaliyyətindən əldə olunan vəsaitlər hesabına formalaşdırılır.

Belə fondların vəsaiti bank idarələrində xüsusi hesabda saxlanılır və geri alına bilməz.

Maddə 6. **Əlillərin sosial müdafiəsini təmin edən dövlət orqanları**

Əlillərin sosial müdafiəsinin təmin olunması sahəsində dövlət idarəetməsini Azərbaycan Respublikasının Sosial Təminat

Nazirliyi, Səhiyyə Nazirliyi, Xalq Təhsili Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Əmək və Sosial Məsələlər Komitəsi, Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi və Azərbaycan Respublikasının yerli hakimiyyət orqanları həyata keçirirlər.

Əlillərin respublika ictimai təşkilatlarının nümayəndələri Azərbaycan Respublikası Sosial Təminat Nazirliyinin və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiya üzvü olurlar.

Azərbaycan Respublikasının Sosial Təminat Nazirliyi başqa nazirliklər və baş idarələr, yerli hakimiyyət orqanları, əlillərin ictimai təşkilatları ilə birlikdə əlillər barəsində dövlət siyasətinin həyata keçirilməsinə dair uzunmüddətli və qısamüddətli proqramları işləyib hazırlayır, habelə onların yerinə yetirilməsinə nəzarət edir.

Azərbaycan Respublikasının Sosial Təminat Nazirliyi və əlillərin ictimai təşkilatları əlillərin sosial müdafiə və digər problemlərinə dair Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verirlər. Dövlət əlillərin sosial müdafiəsi sahəsində təşkilatların xarici ölkələrlə əməkdaşlığının inkişafına kömək göstərir.

Maddə 7. **Əlillərin sosial müdafiəsinə dair dövlət siyasətinin həyata keçirilməsində müəssisələrin, idarələrin və təşkilatların iştirakı**

Müəssisələr, idarələr və təşkilatlar əlillərin problemlərinə dair dövlət siyasətinin həyata keçirilməsində iştirak edirlər.

Əlillərin sosial təminatını yaxşılaşdırmaq məqsədilə müəssisə, idarə və təşkilatların öz vəsaiti hesabına onların həyatının sığortası və bədbəxt hadisələrdən sığortası təmin edilir.

Müəssisələrin, idarələrin və təşkilatların əlillər üçün mallar istehsal etməyə və onlara xidmət göstərməyə, habelə əlillər üçün sosial-mədəni obyektlərə və idman qurğularına avadanlıq almağa, bunları saxlamağa yönəldilən mənfəəti dövlət büdcəsinə ayırmaların bütün növlərindən azad edilir.

Əlillərdən ötrü texniki və başqa vasitələr istehsalında ixtisaslaşan müəssisələr, təşkilatlar və kooperativlər üçün Azərbaycan Respublikasının qanunvericiliyi, habelə yerli ha-

kimiyyət orqanlarının qərarları ilə müəyyənləşdirilən qaydada və şərtlərlə güzəştlər təyin edilir.

Maddə 8. **Əlillərin hüquq, azadlıq və qanuni mənafelərinin qorunması**

Azərbaycan Respublikasında əlillərin hüquq, azadlıq və qanuni mənafelərinin qorunması məhkəmə qaydasında və ya qanunda müəyyənləşdirilmiş başqa qaydada dövlət tərəfindən təmin olunur.

Respublika vətəndaşı onun əlil sayılıb-sayılmaması haqqında həkim-əmək ekspert komissiyasının qərarından Azərbaycan Respublikasının Sosial Təminat Nazirliyinə, habelə rayon (şəhər) xalq məhkəməsinə şikayət edə bilər.

Əlillərin bu Qanunla müəyyən edilmiş hüquqlarının pozulmasında təqsiri olan vəzifəli şəxslər və başqa vətəndaşlar qanunvericiliklə müəyyən edilmiş qaydada və hədlərdə maddi, intizam, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

## II. ƏLİLLİYİN QARŞISININ ALINMASI VƏ TİBBİ BƏRPA

Maddə 9. **Əlilliyin qarşısının alınması**

Əlilliyin qarşısının alınması irsi xəstəliklərin aradan qaldırılmasına, əhalinin sağlam həyat tərzi, ekoloji təhlükəsizlik, zərərsiz əmək şəraiti, səmərəli qida maddələri ilə təmin olunmasına, xəstələrin vaxtında müalicəsinə yönəldilmiş kompleks tədbirləri özündə birləşdirir.

Əlilliyin qarşısının alınması üzrə tədbirlər sistemini respublikanın səhiyyə orqanları hazırlayırlar. Həmin tədbirləri müəssisələr, idarələr və təşkilatlar, səhiyyə müəssisələri və həmkarlar təşkilatları ilə birlikdə həyata keçirirlər.

Maddə 10. **Müəssisələr, idarələr və təşkilatlar tərəfindən orada işləyən vətəndaşların təhlükəsiz əmək şəraiti ilə təmin olunması**

Mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələr, idarələr və təşkilatlar orada işləyən bütün vətəndaşları təhlükəsiz əmək şəraiti ilə təmin edir və onların əmək

qabiliyyətinin aşağı düşməsinə, sağlamlığına yetirilmiş ziyana görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır, müalicə və bərpa xərclərini öz öhdəsinə götürür.

Maddə 11. **Tibbi bərpa**

Tibbi bərpa əlilliyə gətirib çıxaran xəstəliyin, fəsadların qarşısını almaq məqsədilə müxtəlif xəstəliklərin, xəsarətlərin, fiziki, əqli və başqa qüsurların müalicəsinə yönəldilmiş tədbirlər sistemidir.

Tibbi bərpanı tibbi-sanitariya xidməti və ixtisaslaşdırılmış bərpa mərkəzləri həyata keçirirlər.

Maddə 12**. Tibbi-peşə bərpası**

Tibbi-peşə bərpası əlilin yenidən əvvəlki, yaxud yeni peşədə əmək qabiliyyətinin qaytarılması məqsədilə zəifləmiş, yaxud itirilmiş funksiyasının bərpasına, peşə seçilməsinə və əlilin yeni peşəyə uyğunlaşdırılmasına yönəldilmişdir.

Maddə 13**. Əlillərin fərdi bərpa proqramı**

Əlillərin tibbi, peşə və sosial bərpası dövlət orqanları və əlillərin ictimai təşkilatları nümayəndələrinin iştirakı ilə tibbi-sosial ekspertizanın rəyi əsasında müəyyənləşdirilmiş fərdi bərpa proqramı üzrə həyata keçirilir.

Əlillərin fərdi bərpa proqramı bərpa tədbirlərinin, eyni zamanda sosial yardımın növlərinin konkret həcmini, növünü və keçirilmə müddətini müəyyən edir.

Fərdi bərpa proqramı elə bir sənəddir ki, müvafiq dövlət orqanları, eyni zamanda mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələr, idarələr və təşkilatlar tərəfindən hökmən icra edilməlidir.

Maddə 14. **Əlillərə tibbi xidmət**

Əlillərə dövlət tibb müəssisələrində büdcə vəsaiti hesabına pulsuz ixtisaslı tibbi xidmət göstərilməsinə zəmanət verilir.

Əlillər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ambulator-poliklinika müəssisələrində və apteklərdə müstəsna xidmətdən istifadə etmək, eyni zamanda

sanatoriya-kurort müalicəsi ilə ilk növbədə təmin olunmaq hüququna malikdirlər.

## III. ƏLİLLƏRİN TƏRBİYƏSİ, TƏHSİLİ VƏ PEŞƏ HAZIRLIĞI

Maddə 15. **Əlillərin təhsil alması və peşə hazırlığı keçməsi üçün şəraitin təmin edilməsi**

Dövlət əlillərin təhsil alması və peşə hazırlığı keçməsi üçün lazımi şəraitin yaradılmasına təminat verir.

Xalq təhsili orqanları sosial təminat və səhiyyə orqanları ilə birlikdə əlil uşaqların və yeniyetmələrin məktəbəqədər təlim-tərbiyəsini, dərsdənkənar vaxtlarda tərbiyəsini, fərdi bərpa proqramına uyğun surətdə orta, texniki-peşə, orta ixtisas və ali təhsil almasını Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada təmin edirlər.

Əlillərin təhsili və peşə hazırlığı müxtəlif formalarda, o cümlədən evdə tədris formasında və fərdi dərs planları üzrə həyata keçirilir.

Dövlət əlillərin təlim və peşə hazırlığı üçün xüsusi olaraq pedaqoji kadrlar hazırlanmasını təmin edir.

Maddə 16. **Məktəbəqədər yaşlı əlil uşaqların təlim və tərbiyəsi**

Xalq təhsili orqanları məktəbəqədər yaşlı əlil uşaqların təlim-tərbiyəsinə və onlara bərpa yardımı göstərilməsinə daha əlverişli imkanlar yaratmaq məqsədilə ümumi məktəbəqədər uşaq tərbiyə müəssisələrində xüsusi qrupların açılmasına şərait yaradırlar.

Əqli və ya fiziki inkişafındakı qüsurlara görə ümumi məktəbəqədər uşaq tərbiyə müəssisələrində tərbiyə edilməsinə imkan olmayan əlil uşaqlar üçün xüsusi məktəbəqədər uşaq tərbiyə müəssisələri təşkil edilir.

Maddə 17. **Məktəb yaşlı əlil uşaqların evdə təhsili**

Ümumtəhsil məktəblərində oxumaq imkanı olmayan əlil uşaqların təhsili onların və valideynlərinin arzusu ilə ev şəraitində təşkil edilir. Xalq təhsili orqanları əlil uşaqların evdə təhsil almasına hərtərəfli şərait yaradırlar.

Evdə təhsilə cəlb edilmiş əlil uşağın valideynlərindən birinə, yaxud onu əvəz edən şəxsə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən qaydada və şərtlərlə maddi təminat və güzəştlər verilir. Belə əlilə qulluq vaxtı əmək stajına daxil edilir.

Müvafiq təlim-tərbiyə müəssisəsi əlil uşaqlara evdə təlim verilməsində valideynlərə kömək göstərir.

Maddə 18. **Əlil uşaqların məktəbdənkənar tərbiyəsi**

Əlil uşaqları hərtərəfli və ahəngdar inkişaf etdirmək, onlarda ictimai fəallıq oyatmaq, onları əməyə, elmə, texnikaya, incəsənətə və idmana cəlb etmək məqsədilə təhsil orqanları, digər dövlət orqanları əlil uşaqların məktəbdənkənar tərbiyəsi üçün lazımi şəraiti təmin etməlidirlər.

Maddə 19**. Əlillərin orta, orta ixtisas və ali təhsili**

Əlillərin orta, orta ixtisas və ali təhsili ümumi tipli tədris müəssisələrində, zərurət olduqda isə xüsusi tədris müəssisələrində həyata keçirilir.

Əlillərin təhsili üçün xüsusi şəraitin təmin edilməsi məqsədilə texniki-peşə məktəblərinin, texnikumların və ali məktəblərin əlillər üçün ixtisaslaşdırılmış fakültələri və ya şöbələri təşkil edilir.

Stasionar müalicə-profilaktika və ya bərpa müəssisələrində müalicə kursu keçən əlil uşaqlar üçün də dərs məşğələləri təşkil edilir.

İstedadlı əlil uşaqların ümumi tədris müəssisələrində və ya xüsusi məktəbdənkənar tədris müəssisələrində pulsuz musiqi təhsili almaq, təsviri, bədii-tətbiqi sənətlərə yiyələnmək hüququ vardır.

Əlillərin qəbul imtahanları verməsi üçün lazımi şərait yaradılır.

Qəbul imtahanlarını müsbət verən əlillər ali və orta ixtisas təhsili müəssisələrinə müsabiqədənkənar qəbul edilmək hüququna malikdirlər.

Təhsil dövründə pensiyalar və təqaüdlər tam məbləğdə ödənilir.

I və II qrup əlil tələbələrə aldıqları təqaüdün 50 faizi məbləğində əlavə ödənc verilir.

Dövlət əlil - gənc mütəxəssislərin öz ixtisasları üzrə işə düzəlməsini təmin edir.

Tədris müəssisəsini bitirdikdən sonra əlillərə iş yeri seçməkdə üstünlük verilir.

Tədris müəssisəsini bitirdikdən sonra bölgü üzrə göndərilmiş əlili işə qəbul etməkdən imtina etdikdə, ona ixtisası üzrə iş vermədikdə və ya əmək qanunvericiliyinin başqa şərtlərinə əməl etmədikdə müəssisənin (birliyin), idarənin və təşkilatın müdiriyyəti onun iş yerinə gəlmək və daimi yaşayış yerinə qayıtmaq xərclərini habelə zəruri hallarda müşayiətçinin yol xərclərini ödəyir.

Maddə 20. **Stasionar müəssisələrdə əlil uşaqların təlim-tərbiyəsi**

Stasionar müəssisələr orada daim qalan əlil uşaqların sosial-məişət və əmək uyğunlaşması ilə üzvi əlaqə şəraitində onların fasiləsiz təlim-tərbiyəsini təmin edir.

Maddə 21. **Əlillərin peşə hazırlığı və ixtisasının artırılması**

Əlillərin peşə hazırlığı və ixtisasının artırılması fərdi bərpa proqramına uyğun olaraq təhsil ocaqlarında, müəssisələrdə və təşkilatlarda. (ixtisaslaşdırılmış və ya ümumi tipli) əlillərə sosial yardım göstərən idarələr və onların ictimai təşkilatları ilə birlikdə təmin edilir.

Görməyən və zəif görən uşaqlar Brayl yazı sistemi ilə çap olunmuş dərsliklərlə, danışan kitablarla, əyani vəsaitlərlə, xüsusi maqnitofonlarla, lupalar, əl ağacları, karlar eşitmə cihazları və digər tiflo-surdotexniki vasitələri ilə təmin olunur, onlar üçün xüsusi məktəblər və səsyazma studiyası yaradılır, xüsusi kitab-xanalar təşkil edilir.

Peşə hazırlığı və ixtisasartırma dövründə əlillərin maddi təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən qaydada və şərtlərlə həyata keçirilir.

Maddə 22. **Şəxslərarası ünsiyyət vasitələri**

Dövlət hərəkətlər dilini şəxslərarası ünsiyyət, təlim və tərcümə xidmətləri göstərmək vasitəsi kimi təsdiq edir.

Görmə qüsurları olan şəxslər Brayl sistemi üzrə təlimlə, audiovasitələr və iri şriftlə təmin edilirlər.

Əqli qüsurları olan şəxslərə dilin asan başa düşülməsinin öyrədilməsi sistemi təşkil edilir.

Nitq qüsurları olan şəxslərə müasir texniki ünsiyyət vasitələri verilir.

## IV. ƏLİLLƏRİN İŞƏ DÜZƏLDİLMƏSİ

Maddə 23. **Əlillərin işə düzəldilməsi sahəsində xüsusi tədbirlər**

Əlillərin işə düzəldilməsi sahəsində xüsusi tədbirlər əlillərin işə düzəldilməsinin təmin olunmasına və əlillər üçün xüsusi iş yerləri yaradan, onların əməyini tətbiq edən müəssisələrə, idarələrə və təşkilatlara (mülkiyyət formalarından asılı olmayaraq) maliyyə yardımı göstərmək və güzəştlər vermək üzrə öhdəliklərin qanunvericilik yolu ilə təsbit edilməsinə yönəldilən tədbirlər kompleksindən ibarətdir.

Maddə 24. **Əlillərin əmək hüququnun həyata keçirilməsi**

Əlillərin yaradıcılıq və istehsal qabiliyyətinin həyata keçirilməsi məqsədilə və fərdi bərpa proqramları nəzərə alınmaqla, onların adi iş şəraiti olan müəssisələrdə, idarələrdə və təşkilatlarda, əlillərin əməyini tətbiq edən ixtisaslaşdırılmış müəssisələrdə, sexlərdə və sahələrdə işləmək, habelə sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən başqa fəaliyyət ilə məşğul olmaq hüququ təmin edilir.

Həkim-əmək ekspert komissiyasının rəyinə görə əlilin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, əlillik mülahizələrinə görə əlillə əmək müqaviləsini bağlamaqdan, yaxud əlili işdə irəli çəkməkdən imtina edilməsinə, müdiriyyətin təşəbbüsü ilə onun işdən azad edilməsinə, öz razılığı olmadan başqa işə keçirilməsinə yol verilmir.

Müvafiq müəssisələrdə tibbi, peşə və sosial bərpa keçən şəxsin bu müəssisələrdə olduğu müddətdən asılı olmayaraq müdiriyyətin təşəbbüsü ilə işdən azad edilməsinə yol verilmir.

Maddə 25. **Əlillərin məşğulluğunun təmin edilməsi**

Yerli hakimiyyət orqanları, müəssisələr (birliklər), idarələr və təşkilatlar, Sosial Təminat Nazirliyinin orqanları əlillərin ictimai təşkilatları ilə birlikdə əlillərin əməyi üçün müəssisələr və təşkilatlar yaratmaq yolu ilə xüsusi proqramlar üzrə təlim təşkil etməklə və başqa tədbirlər görməklə əlillərə məşğulluq sahəsində təminat verirlər.

Əlillər cəmiyyətlərinin həmkarlar ittifaqları və sosial təminat orqanları ilə birlikdə əlillər üçün iş yerləri yaradılması, müəssisə və təşkilatlarda iş yerləri üzrə kvota müəyyən edilməsi barədə təklifləri yerli hakimiyyət orqanları təsdiq edirlər.

Əlillərin işə düzəlməsi üçün nəzərdə tutulan kvotanı təmin etməyən və ya onları işə düzəltməkdən boyun qaçıran müəssisələr, idarələr və təşkilatlar, mülkiyyət formasından asılı olmayaraq, ilin yekunlarına görə mənfəətlərindən Azərbaycan Respublikasının əlilləri sosial müdafiə fonduna əlilləri işlə təmin etmədikləri aylar üzrə hər iş yeri üçün respublika üzrə müəyyən edilmiş minimum əmək haqqının 3 misli məbləğində vəsait köçürürlər.

Yaradılmış və kvota müəyyən edilmiş iş yerlərinə əlillərin işə göndərilməsi dövlət əhalinin məşğulluğu sisteminin yerli orqanları tərəfindən həyata keçirilir. İşə düzəlmək üçün əlillərə verilmiş göndəriş mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq kvota müəyyənləşdirilmiş bütün müəssisələr və təşkilatlar tərəfindən qəbul edilməlidir.

Yerli hakimiyyət orqanlarının əlillər üçün müəssisələrdə və təşkilatlarda kvota təyin etməsi üçün işçilərin sayı və kvotanın miqdarı, vergi və maliyyə güzəştləri, işədüzəltmə üzrə tapşırıqların yerinə yetirilməsində müəssisə və təşkilatların məsuliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 26. **İşverənlərin əmək qabiliyyətini itirmiş şəxsləri işə düzəltmək vəzifəsi**

Müəssisələr, idarələr, təşkilatlar, kooperativlər, kolxozlar və xüsusi sahibkarlar həmin istehsalatda bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş, bunun nəticəsində əlil sayılmış işçilərin işə düzəlməsi üçün iş yerləri ayırmağa və ya yenilərini təşkil etməyə borcludurlar.

Göstərilən tələbi yerinə yetirmədikdə onlar bu işçi ilə əmək müqaviləsini (bağlaşmasını) ləğv edərkən əlilləri sosial müdafiə fonduna həmin işçinin on illik əmək haqqı məbləğində vəsait köçürməlidirlər.

Maddə 27. **Əlillərin əməyindən istifadə üçün ixtisaslaşdırılmış müəssisələrin, sexlərin və sahələrin yaradılması**

Müvafiq işədüzəltmə orqanları, habelə mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələr və təşkilatlar əlillərin tələbatını və yerli xüsusiyyətləri nəzərə almaqla əlillərin əməyindən istifadə üçün ixtisaslaşdırılmış müəssisələr, sexlər və sahələr yaradırlar.

Maddə 28. **Əlillərin əməyini tətbiq edən müəssisələr üçün üstünlüklər və güzəştlər**

İşləyənlərin ümumi sayının azı 30 faizinin əlillərdən ibarət olduğu müəssisələr, idarələr və təşkilatlar güzəştli maliyyələşdirmə və maddi-texniki təminat hüququna malikdirlər. Belə müəssisələrə, idarələrə və təşkilatlara mənfəət vergisinin 50 faizi məbləğində güzəşt verilir.

İşləyənlərin ümumi sayının (əvəzçilik üzrə işləyənlər nəzərə alınmadan) azı 50 faizinin əlillərdən ibarət olduğu müəssisə, idarə və təşkilat mənfəət vergisindən azad edilir.

Əlillərin əməyini tətbiq və təmin edən müəssisələrdən, idarələrdən və təşkilatlardan güzəştli vergi tutulmasının, onların maliyyələşdirilməsinin və maddi-texniki təminatının qaydası və şərtləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Müəyyən çeşiddə məhsulların əlillərin ictimai təşkilatlarının müəssisələrində istehsal olunmasına müstəsna üstünlük verilir.

Mülkiyyət növündən asılı olmayaraq başqa idarələrin, müəssisələrin, təşkilatların və kooperativlərin həmin məhsulları istehsal etməsinə icazə verilmir, Nazirlər Kabineti əlillərin ictimai təşkilatlarının rəyini nəzərə alaraq belə məhsulların siyahısını müəyyənləşdirib təsdiq edir.

Maddə 29. **Əlillərin əmək şəraiti**

Müəssisələrdə, idarələrdə və təşkilatlarda işləyən əlillər üçün fərdi bərpa proqramına müvafiq surətdə lazımi iş şəraiti yaradılır.

Kollektiv və ya fərdi əmək müqaviləsində müəyyən edilən əmək şəraiti, o cümlədən əmək haqqı, iş və istirahət vaxtı rejimi, illik və əlavə məzuniyyətlərin müddəti başqa işçilərə nisbətən əlillərin vəziyyətini pisləşdirə və ya hüquqlarını məhdudlaşdıra bilməz.

Müəssisə, təşkilat müdiriyyətinin ixtiyarı var ki, əlillərin səhhətindən asılı olaraq onların əmək normalarını azaltsın və əməyini artırılmış qiymətlərlə ödəsin.

Əlillərin iş vaxtından artıq işlərə, istirahət günləri və gecə vaxtı işləməyə cəlb edilməsinə yalnız onların razılığı ilə və bu şərtlə yol verilir ki, belə işlər tibbi tövsiyələrdə qadağan edilməsin.

Əlillərə (əlillik qruplarından və səbəblərindən asılı olmayaraq) illik məzuniyyətlər mövcud qanunvericiliklə müəyyən edilmiş minimum məzuniyyət müddətinin iki mislindən az olmayaraq verilir.

Əlillərə (əlillik qruplarından və səbəblərindən asılı olmayaraq) azı bir təqvim ayı müddətində ödənişsiz məzuniyyət verilir.

I və II qrup əlillər üçün həftədə 36 saatdan çox olmayan qısaldılmış iş vaxtı müəyyən edilir.

İşə qəbul zamanı əlillər üçün sınaq müəyyən edilmir. İşçilərin sayı və ya ştatı ixtisar edilərkən ixtisas dərəcəsi bərabər olduqda əlillərin işdə saxlanmaq üçün üstünlük hüququ vardır.

Əmək vəzifələrini yerinə yetirərkən xəsarət alıb şikəst olmuş və bu səbəbdən əmək qabiliyyətini itirmiş I və II qrup əlillərin işləmədiyi müddət onların ümumi və fasiləsiz iş stajına daxil edilir.

Maddə 30. **Əlillərin evdə əməyi və sahibkarlıq fəaliyyəti**

Yerli hakimiyyət orqanları qeyri-yaşayış otaqlarını vermək, habelə xammal əldə edilməsində və məhsulun satışında kömək göstərmək yolu ilə əlillərin evdə əməyinin və sahibkarlıq fəaliyyətinin təşkili üçün lazımi şərait yaradırlar.

## V. SOSİAL İNFRASTRUKTURUN ƏLİLLƏRƏ MANEƏSİZ MÜYƏSSƏR OLMASI ÜÇÜN ŞƏRAİT YARADILMASI

Maddə 31. **Sosial infrastruktur obyektləri barəsində dövlət siyasəti**

Azərbaycan Respublikasının dövlət hakimiyyəti və idarəetmə orqanları, müəssisələri (birlikləri), idarələri və təşkilatları (mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq) sosial infrastruktur obyektlərinin, mənzillərin, ictimai, istehsal binalarının və qurğularının əlillərə maneəsiz müyəssər olması, ictimai nəqliyyatdan və nəqliyyat kommunikasiyalarından, rabitə və informasiya vasitələrindən, istirahət və asudə vaxt yerlərindən onların sərbəst istifadə etməsi üçün lazımi şəraiti təmin edirlər.

Maddə 32. **Sosial infrastruktur obyektlərinin layihələşdirilməsi və tikintisi zamanı əlillərin tələbatının nəzərə alınması**

Əlillərin müyəssər olması və istifadə etməsi üçün uyğunlaşdırılmadan yaşayış məntəqələrinin layihələşdirilməsinə, tikilməsinə, yaşayış rayonlarının formalaşdırılmasına, binaların, qurğuların, o cümlədən aeroportların, dəmir yolu vağzallarının, komplekslərinin və kommunikasiyalarının tikilməsinə və yenidən qurulmasına yol verilmir. Bu məsələlərin həllində əlillərin ictimai təşkilatlarının iştirakı və razılığı olmalıdır.

Maddə 33. **İstifadədə olan sosial infrastruktur obyektlərinin əlillərin istifadəsi üçün uyğunlaşdırılması**

İcra hakimiyyəti orqanları, nazirliklər, dövlət komitələri, baş idarələr, müəssisələr və təşkilatlar tabeliklərində olan nəqliyyat, rabitə, informasiya, mədəni-tamaşa və digər sosial infrastruktur

qurğularını və obyektlərini öz vəsaitləri hesabına əlillərin istifadəsi üçün uyğunlaşdırırlar.

Göstərilən obyektləri əlillərə müyəssər olmaq üçün uyğunlaşdırmaq mümkün olmadıqda, müvafiq müəssisələr, idarələr və təşkilatlar əlillərin tələbatının ödənilməsini təmin edən lazımi tədbirlər hazırlayıb həyata keçirməlidirlər.

Maddə 34. **Yaşayış binalarının əlillərin müyəssər olması və istifadə etməsi üçün uyğunlaşdırılması**

Əlillərin və ya tərkibində əlil olan ailələrin yaşadıqları binalar, əlillərin yaşadıqları evlərin giriş qapıları, pilləkən meydançaları fərdi bərpa proqramına uyğun olaraq xüsusi vasitələr və qurğular, lift habelə telefon rabitəsi ilə təmin edilməlidir.

Yaşayış binalarının əlillər üçün uyğunlaşdırılmasını və avadanlıqla təchiz edilməsini mənzil fondu ixtiyarında olan yerli hakimiyyət orqanları, müəssisələr, idarələr və təşkilatlar həyata keçirirlər.

Əlillərin yaşadıqları fərdi evlərin onlar üçün uyğunlaşdırılmasını və avadanlıqla təchiz edilməsini əlilliyin başlanmasında təqsiri olan müəssisələr, idarələr və təşkilatlar, başqa hallarda isə müvafiq yerli hakimiyyət orqanları həyata keçirirlər.

Əlilin mənzili müəyyən edilmiş tələblərə uyğun gəlmədikdə və mənzili əlilin tələbatına uyğunlaşdırmaq mümkün olmadıqda, yaşayış sahəsi onun pazılığı və tələbi ilə dəyişdirilir.

Yerli hakimiyyət orqanları dayaq-hərəkət sistemi pozulmuş və digər I qrup əlillərə öz yaşayış yerlərinin yaxınlığında qaraj tikintisi üçün torpaq sahələri ayrılmasını təmin edirlər.

Maddə 35. **Mədəni-tamaşa müəssisələrinin və idman qurğularının əlillərə müyəssər olmasının təmin edilməsi**

Yerli hakimiyyət və idarəetmə orqanları mədəni-tamaşa müəssisələrinin və idman qurğularının əlillərə müyəssər olması üçün lazımi şəraiti təmin etməyə, habelə onlara xüsusi idman inventarı verilməsini təmin etməyə borcludurlar.

Əlillər göstərilən xidmətlərdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq pulsuz və ya güzəştli şərtlərlə istifadə edirlər.

Maddə 36. **Əlillərin rabitə vasitələri ilə təmin edilməsi**

1990-cı ilin 19-20 yanvar Bakı hadisələrində, Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda münaqişə zamanı əlil olanların, müharibə əlillərinin, onlarla bərabər tutulanların, Çernobıl əlillərinin, digər kateqoriyalardan olan 1 və II qrup əlillərin növbədənkənar telefon çəkdirmək hüququ vardır.

1990-cı ilin 19-20 yanvar Bakı hadisələrində, Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda münaqişə zamanı əlil olanlara, müharibə əlillərinə, onlara bərabər tutulanlara, Çernobıl əlillərinə və I qrup işləməyən əlillərə telefon pulsuz, digər kateqoriyalardan olan I və II qrup əlillərə 50 faiz güzəştlə çəkilir. Bu bənddə göstərilən kateqoriyadan olan bütün əlillər telefondan istifadə haqqının 50 faizini ödəyirlər.

I qrup əlillər radio xətlərindən pulsuz istifadə edirlər. I və II qrup gözdən şikəst əlillər 4 kq. qədər bağlamaları (banderolları) respublika daxilində və xaricə pulsuz göndərirlər.

Əlillərin ictimai təşkilatlarının qəzet və jurnalları pulsuz yayılır.

Maddə 37. **Əlillərin sosial infrastruktura müyəssərliyinin təmin edilməməsinə görə məsuliyyət**

İdarələr və təşkilatlar sosial obyektlərin əlillərə müyəssərliyini təmin etmədikdə Azərbaycan Respublikasının əlilləri sosial müdafiə fondunun hesabına obyektin əlillərə uyğunlaşdırılmasına tələb edilən məbləğin 20 faizi məbləğində çərimə köçürürlər.

Cəriməni ödəmiş müəssisələr və təşkilatlar sosial infrastruktur obyektlərinin əlillərə uyğunlaşdırılması vəzifəsindən azad edilmirlər.

## VI. ƏLİLLƏRİN MADDİ, SOSİAL-MƏİŞƏT VƏ TİBBİ TƏMİNATI

Maddə 38. **Əlillərə sosial yardımın növləri**

Əlillərin maddi, sosial-məişət və tibbi təminatı pul ödəncləri (pensiyalar, müavinətlər, birdəfəlik ödənclər) verilməsi, dava-dərman, texniki və başqa vasitələr, o cümlədən avtomobillər ilə, kreslo-arabalar, protez-ortopediya məmulatı, xüsusi şriftli mətbu nəşrlər, səsgücləndirən aparatlar və analizatorlar ilə təminat, habelə tibbi, sosial, əmək və peşə bərpası sahəsində xidmətlər göstərilməsi, məişət və ticarət xidməti göstərilməsi yolu ilə hə· yata keçirilir.

Maddə 39. **Sosial yardımın növünün müəyyən edilməsi**

Əlillərə lazımi maddi, sosial-məişət və tibbi yardımın növlərini tibbi-sosial ekspertiza orqanları fərdi bərpa proqramında müəyyən edirlər. Yardım Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının və əlilləri sosial müdafiə fondunun vəsaiti hesabına göstərilir.

Maddə 40. **Əlilə texniki və digər bərpa vasitəsi verilməsi**

Əlilə texniki və ya başqa vasitə fərdi bərpa proqramına uyğun olaraq pulsuz və ya güzəştli şərtlərlə verilir.

Bərpa proqramında nəzərdə tutulan texniki və ya başqa vasitələr əlilə verilmədikdə, Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ona kompensasiya ödənilir.

Fərdi bərpa Proqramına uyğun olaraq pulsuz və ya güzəştli şərtlərlə nəqliyyat vasitələri almış əlillərə bu vasitələrə texniki xidmət və onların təmiri üçün Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada kompensasiya ödənilir.

Maddə 41. **Əlillərə nəqliyyat xidməti**

Müharibə əlilləri və onlara bərabər tutulan şəxslər ildə bir dəfə Azərbaycan Respublikasının hüdudları daxilində hava, dəmiryol və su nəqliyyatından pulsuz istifadə etmək hüququna malikdirlər.

I və II qrup əlillər respublikadaxili (şəhərlərarası) bütün nəqliyyat növlərindən (taksidən başqa) 50 faiz güzəştlə istifadə edirlər.

Əlillər şəhərdaxili və şəhərətrafı nəqliyyatdan (taksidən başqa) pulsuz istifadə edirlər.

Göstərilən güzəştlər I qrup əlili, habelə əlil uşağı müşayiət edən şəxsə də şamil edilir.

Əlillərə növbədənkənar xidmət göstərilir.

Maddə 42. **Dərman preparatları və protezlər ilə təminat**

1990-cı ilin 19-20 yanvar Bakı hadisələrində, Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda münaqişə zamanı əlil olanlar, müharibə əlilləri, onlara bərabər tutulanlar, Çernobıl əlilləri, əlil uşaqlar və I dərəcəli əlillər dərman preparatları ilə pulsuz təmin edilirlər. İkinci dərəcəli əlillərə dərman preparatları 50 faiz güzəştlə satılır.

1990-cı ilin 19-20 yanvar Bakı hadisələrində, Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda münaqişə zamanı əlil olanlar, müharibə əlilləri, Çernobıl əlilləri, Əfqanıstanda xidmətlə əlaqədar əlil olmuş şəxslər və I qrup əlillər üçün diş protezləri (qiymətli metallardan hazırlanan protezlər istisna edilməklə) pulsuz hazırlanır və pulsuz təmir olunur.

1990-cı ilin 19-20 yanvar Bakı hadisələrində, Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda münaqişə zamanı əlil olanlar, müharibə əlilləri, 16 yaşınadək əlil uşaqlar, əlil tələbələr, ümumi səbəbdən və uşaqlıqdan əlil olub işləməyən şəxslər, hərbi xidmət əlilləri, büdcədən maliyyələşdirilən idarə və təşkilatlarda işləyən əlillər protez-ortopediya məmulatı, əlil kreslo və veloarabaları, bərpa vasitələri ilə pulsuz təmin edilirlər.

Əlillər eşitmə və tiflotexniki vasitələr ilə pulsuz təmin edilirlər.

Maddə 43. **Əlillərə mənzil-məişət xidməti**

Əlillər dövlətin hesabına mənzillə təmin edilirlər. I qrup əlillərə mənzillər növbədənkənar verilir.

Fərdi bərpa proqramına uyğun olaraq əlillər binanın növünü, mərtəbəsini, abadlıq vəziyyətini və yaşayış üçün vacib olan digər şərtləri nəzərə almaqla yaşayış sahəsini seçmək hüququna malikdirlər.

I və II qrup əlillərə yaşadıqları dövlət və ictimai mənzil fonduna məxsus mənzilləri pulsuz olaraq şəxsi mülkiyyətə keçirmək hüququ verilir.

Mənzil bölgüsü zamanı yerli hakimiyyət orqanları, müəssisələr, idarələr və təşkilatlar əlillərin iş yerlərinin, qohumlarının yaşayış yerlərinin, bərpa müəssisələrinin yaxınlığında mənzillər ayrılmasına olan tələbatı nəzərə alırlar.

Tibbi göstərişlərə və arzularına uyğun olaraq əlillərə yaşayış evlərinin aşağı mərtəbələrində mənzil verilir (və ya dəyişdirilir).

Əlillərə verilən mənzillər əlillərin səhhəti nəzərə alınmaqla müəyyən edilən sanitariya texniki tələblərə uyğun gəlməlidir.

Əlillərin mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan şəxslər hesab edilməsinin əsasları, onlara mənzil verilməsinin növbəliyi Azərbaycan Respublikasının mənzil qanunvericiliyi ilə müəyyən edilir. Bu zaman 1 qrup əlillər ailədə adambaşına 9 kvadratmetr və daha az yaşayış sahəsi ilə təmin edilmiş olduqda mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan şəxslər sayılırlar.

I və II qrup əlillər mənzil-kommunal xidmətləri haqqının 50 faizini, III qrup əlillər isə 75 faizini ödəyirlər. Müharibə əlilləri, onlara bərabər tutulanlar və I qrup işləməyən əlillər ev kirayəsi verməkdən azaddırlar.

Maddə 44. **Əlillərin ərzaq və sənaye malları ilə təmin edilməsi**

Əlillər ərzaq və sənaye malları ilə güzəştli qaydada təmin edilmək hüququna malikdirlər.

Bu məqsədlə dövlət əlillərə ərzaq və sənaye mallarının satışı üzrə xüsusi mağazalar, bölmələr, şöbələr yaradır, yüksək tələbat olan malların alınması üçün sifariş stolları, xüsusi uçot təşkil edir.

Ərzaq və sənaye mallarının bir hissəsini dövlət güzəştli şərtlərlə əlillərə satılmaq üçün məqsədli təyinatı üzrə yönəldir.

Əlillərin ictimai təşkilatlarının vəsatətləri üzrə yerli hakimiyyət orqanları pərakəndə ticarət şəbəkəsi vasitəsilə təsərrüfat, mədəni-məişət, turist və idman malları almaqda əlillərə kömək göstərirlər.

Ərzaq və sənaye malları ilə güzəştli qaydada təmin edilmək hüququna malik olan əlillərin xəstəliklərinin siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

Maddə 45. **Evdə xidmət**

Kənardan qulluğa və yardıma ehtiyacı olan əlillərə sosial yardım orqanları evdə, yaxud stasionar müəssisələrdə tibbi və məişət xidmətləri göstərirlər.

Dövlət kənardan qulluğa ehtiyacı olan əlillərə sosial yardım üzrə stasionar müəssisələr şəbəkəsinin inkişafına kömək göstərir.

Qohumluq münasibətindən asılı olmayaraq I qrup əlilə (əlillik səbəbindən asılı olmayaraq) qulluq edən şəxsin bu qulluq müddəti onun ümumi əmək stajına daxil edilir.

Maddə 46**. İnternat evlərdə və digər stasionar sosial yardım müəssisələrində olan əlillərin hüquqları**

Əlillərin internat evdə və ya digər stasionar sosial yardım müəssisəsində olmasının şərtləri onların öz hüquqlarını və qanuni mənafelərini həyata keçirməsi imkanını təmin edir və şəxsiyyətin tələbatının maksimum ödənilməsinə kömək göstərir.

Bərpa tədbirləri nəticəsində əlilin internat evdə və ya başqa stasionar sosial yardım müəssisəsində olması zərurətinin aradan qalxdığı halda yerli dövlət hakimiyyəti orqanı bu Qanunun 34-cü və 43-cü maddələrinin tələblərinə uyğun olaraq ona abad yaşayış sahəsi verir.

Valideynləri olmayan və ya valideynləri valideynlik hüquqlarından məhrum edilmiş, dövlət və ya başqa sosial müəssisələrdə yaşayan əlil uşaqlar yetkinlik yaşına çatdıqda tibbi-sosial ekspertiza rəyinə görə özlərinə xidmət edə bilərsə və müstəqil yaşaya bilərsə, növbədənkənar mənzil almaq və onu abadlaşdırmaqdan ötrü maddi yardım almaq hüququna malikdirlər.

Əlillər üçün internat evlərdə (pansionatlarda) yaşayan tənha pensiyaçıların pensiyası ilə internat evdə (pansionatda) saxlanma

dəyəri arasında fərq təyin edilmiş pensiyanın 25 faizindən və yaşa görə minimum pensiyanın 20 faizindən az olmayaraq ödənilir.

Əlillər üçün internat evdə (pansionatda) yaşayan pensiyaçının öhdəsində əmək qabiliyyəti olmayan ailə üzvləri olduqda pensiya aşağıdakı qaydada ödənilməlidir: pensiyanın 25 faizi, lakin yaşa görə minimum pensiyanın 20 faizindən az olmayaraq pensiyaçının özünə, qalan hissəsi isə təyin edilmiş məbləğin 50 faizindən çox olmayaraq göstərilən ailə üzvlərinə.

Əmək və istirahət evində yaşayan gənc əlillərin pensiyası tam məbləğdə ödənilir.

Maddə 47. **Əlillərin həyatının yaxşılaşdırılmasına yönəldilən qərarların qəbul olunmasında yerli hakimiyyət orqanlarının səlahiyyəti**

Yerli hakimiyyət orqanları müvafiq büdcələrin vəsaiti hesabına və özlərinin səlahiyyəti daxilində əlillərin dövlət pensiyalarının bütün növləri üzərinə əlavə haqlar, onlara tibbi xidmət, yaşayış sahəsinin, kommunal xidmətlərin haqqını, ictimai nəqliyyatda gediş-gəliş haqqını ödəməkdə güzəştlər, fərdi hərəkət vasitələrinin, yanacağın, yeyinti məhsullarının, paltarın, ayaqqabının və əlillər üçün zəruri olan digər malların dəyərini ödəməkdə güzəştlər müəyyən edə bilər, habelə əlillərin spesifik tələbatının ödənilməsinə və yaşayış səviyyəsinin yüksəldilməsinə yönəldilən başqa qərarlar qəbul edə bilərlər.

Maddə 48.**Əlillərin yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldilən qərarların qəbul olunmasında əmək kollektivlərinin səlahiyyəti**

Pensiyaya çıxanadək müəssisədə, idarədə, təşkilatda işləmiş əlillər onun işçiləri ilə bərabər tibbi xidmət, mənzil təminatı, sağlamlıq və profilaktika müəssisələrinə putyovkalar almaq sahəsində mövcud imkanlardan istifadə etmək, habelə kollektivin ümumi yığıncağının (konfransının) qərarı ilə həm də başqa sosial xidmətlərdən və güzəştlərdən istifadə etmək hüququnu saxlayırlar.

Mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların ixtiyarı var ki, kənardan yardıma və qulluğa ehtiyacı olan əlillərin, xüsusən tək əlillərin

pensiyaları üzərinə öz vəsaitləri hesabına üstəlik və əlavə haqlar müəyyən etsinlər, habelə bu Qanunda nəzərdə tutulan başqa güzəştləri versinlər.

Maddə 49. **Sosial yardımın maliyyələşdirilməsi mənbələri**

Sosial yardım respublika və yerli büdcələrin, pensiya fondunun, sosial sığorta fondunun vəsaiti, eləcə də əlilləri sosial müdafiə fonduna müəssisələrin, təşkilatların və vətəndaşların cərimələri və könüllü verdikləri ianə hesabına göstərilir.

## VII. ƏLİLLƏRİN İCTİMAİ TƏŞKİLATLARI

Maddə 50**. Əlillərin ictimai təşkilatlarının yaradılması**

Öz hüquqlarını və mənafelərini qorumaq, qarşılıqlı yardım və xidmət göstərmək məqsədilə əlillər və onları təmsil edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən qaydada ictimai təşkilatlar, o cümlədən müxtəlif fondlar yaratmaq hüququna malikdirlər.

Əlillərin ictimai təşkilatlarının yaradılması, fəaliyyəti və ləğv edilməsi qaydası ictimai təşkilatlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, bu təşkilatların müəyyən edilmiş qaydada qeydə alınan nizamnamələri ilə tənzimlənir.

Maddə 51. **Dövlət və əlillərin ictimai təşkilatları**

Dövlət əlillərin ictimai təşkilatlarının hüquqlarına və qanuni mənafeyinə əməl olunmasını təmin edir və Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna uyğun olaraq onların öz nizamnamə vəzifələrini yerinə yetirməsi üçün şərait yaradılmasına təminat verir, onlara hərtərəfli yardım göstərir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla əlillərin ictimai təşkilatlarının fəaliyyətinə dövlət orqanlarının" və vəzifəli şəxslərin qarışmasına yol verilmir.

Əlillərin, ictimai təşkilatlarının mənafeyinə toxunan məsələləri qanunvericilikdə nəzərdə tutulan hallarda dövlət orqanları və təsərrüfat təşkilatları əlillərin müvafiq ictimai təşkilatlarının iştirakı və ya razılığı ilə həll edirlər.

Özlərinin respublika orqanlarının şəxsində əlillərin ictimai təşkilatları Azərbaycan Respublikasının Ali Sovetində qanunvericilik təşəbbüsü hüququna malikdirlər.

Mətbuat, radio və televiziya əlillərin həyatından bəhs edən xüsusi rubrika hazırlayır. Dövlət əlillər cəmiyyətlərinin mətbuat orqanlarının nəşrinə maliyyə yardımı və texniki yardım göstərir.

Əlillərin ictimai təşkilatlarının yerli orqanları, habelə onların müəssisələrinin (birliklərinin), idarələrinin və təşkilatlarının əmək kollektivləri əlillərin sosial müdafiəsi məsələləri barəsində yerli hakimiyyət orqanlarına təkliflər verə bilərlər.

Maddə 52. **Əlillərin ictimai təşkilatlarından vergi tutulması**

Əlillərin ictimai təşkilatları pensiya və sosial sığorta fonduna ayırmalardan azad olunurlar.

Əlillərin ictimai təşkilatları yanında təşkil olunmuş müəssisələr, kooperativlər, idarələr, təşkilatlar və başqa istehsalat obyektləri işçilərinin neçə faizinin əlil olmasından asılı olmayaraq yarandığı vaxtdan 5 il ərzində hər cür vergi və rüsumlardan, o cümlədən pensiya fonduna və sosial sığorta fonduna ayırmalardan azad edilirlər.

Əlillərin ictimai təşkilatlarının müəssisələrində, idarələrində və təşkilatlarında sənaye-istehsal heyəti sayının azı 50 faizi əlillərdən ibarətdirsə, onlar yarandığı vaxtdan 5 il keçdikdən sonra da mənfəət vergisindən və dövlət büdcəsinə keçirilən rüsumlardan, o cümlədən pensiya fonduna və sosial sığorta fonduna ayırmalardan azad olunurlar.

Əldə edilən gəlir bu cəmiyyətlərin maddi-texniki bazasının inkişafına və möhkəmləndirilməsinə, əlillərin sosial ehtiyaclarının ödənilməsinə yönəldilir.

Əlillərin ictimai təşkilatları mədəni-kütləvi, idman klubları, mədəniyyət evləri, kitabxanalar və s. yerləşən binalar üçün icarə haqqını, rabitə və kommunal xidmətini ödəməkdən azad edilirlər.

Maddə 53. **Əlillərin ictimai təşkilatlarının iqtisadi fəaliyyəti üçün şərait yaradılması**

Əlillərin müəssisələrinin və ictimai təşkilatlarının maddi-texniki təminatı mərkəzləşdirilmiş respublika ehtiyatlarından həyata keçirilir.

Əlillərin bərpası üçün nəzərdə tutulan müəssisələrin məhsulları (texniki vasitələr və qurğular) dövlət sifarişinə daxildir və maddi-texniki ehtiyatlarla birinci növbədə təmin edilir.

Əlillər üçün obyektlər tikintisi maliyyələşdirmə mənbələrindən asılı olmayaraq dövlət sifarişi tikintilərinin siyahısına daxil edilir.

Maddə 54. **Əlillərin ictimai təşkilatlarının vəsaiti hesabına tikilmiş yaşayış sahəsinin bölgüsü**

Əlillərin ictimai təşkilatlarının öz vəsaiti hesabına, o cümlədən payçılıq yolu ilə tikdirdiyi yaşayış sahələri onların daimi mülkiyyəti olaraq geri alına bilməz və Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə uyğun olaraq əlillərin ictimai təşkilatlarının təkliflərinə əsasən bölüşdürülür.

Əlillərin ictimai təşkilatları mənzil tikintisində payçılıq qaydasında iştirak edərkən tikinti sənayesi qurğularının inkişafında və kommunal tikintidə payçılıq iştirakından, habelə yaşayış sahələrinin bir qismini yerli hakimiyyət orqanlarına və başqa təşkilatlara verməkdən azad edilirlər.

Maddə 55. **Əlillərin ictimai təşkilatlarının beynəlxalq əlaqələri**

Əlillərin ictimai təşkilatları öz nizamnamələrinə müvafiq surətdə beynəlxalq (qeyri-hökumət) birliklərə daxil ola bilər, bir-başa beynəlxalq əlaqələr saxlaya bilər, müvafiq sazişlər bağlaya bilərlər.

Dövlət orqanları əlillərin bərpası, mədəni əlaqələrin, turizmin və idmanın, o cümlədən əlillər arasında keçirilən olimpiya, para-olimpiya, xoş məramlı və başqa beynəlxalq yarışların genişləndirilməsi məsələlərində beynəlxalq təşkilatların və xarici ölkələrin oxşar ictimai birləşmələri ilə əməkdaşlıq yaratmaqda və onu inkişaf etdirməkdə əlillərin ictimai təşkilatlarına kömək edir, o cümlədən maliyyə yardımı göstərir.

Əlillər təşkilatlarının nümayəndə heyətinin xarici ölkələrə gedib-gəlmək üçün nəqliyyat vasitələrindən istifadəsi və xarici

qonaqların respublika ərazisində mehmanxanalarda yerləşdirilməsi respublikada tədavüldə olan pul vahidi ilə ödənilir.
Əlillər təşkilatları beynəlxalq iqtisadi-ticarət əlaqələrində gömrük və başqa dövlət rüsumlarından azad edilir və əldə edilmiş gəlir (valyuta) tamamilə cəmiyyətlərin öz hesablarında qalır.

**Bakı şəhəri,**
**25 avqust 1992-ci il. № 284.**

## Əlillik qüsur deyil

Məşhur bir filosofa görə hər insanın xüsusi istedadı var. Əsas məsələ, həmin istedadı üzə çıxarmaqdır. Bu xüsusiyyət insanın dilinə, dininə, irqinə görə dəyişiklik göstərmədiyi kimi xarici görünüşünə görə də dəyişmir.

Fiziki cəhətdən zəif olan insanlar əslində ictimaiyyət, dövlət tərəfindən qorunmalıdır. Ona görə ki, onlar da öz həyatını yaşamalı, firavan dolanmalı və öz bacarıqlarını əməli işə sərf etməli və faydalanmalıdırlar. Söz yox ki, hal-hazırda bu sahədə müəyyən işlər gedir və kifayət qədər həmin insanlara qayğı göstərilir.

Bir cəhəti qeyd etmək lazımdır ki, həyatda, ictimaiyyət arasında elə insanlar var ki, fiziki cəhətdən əlil insanlara normal yanaşmır, laqeydlik edir və hətta onlara vəchlə yanaşırlar. Belə hallar insanın insana qarşı pis münasibətdən başqa bir şey deyildir. Unutmaq lazım deyilki həyatda fiziki cəhətdən şikəst olan insanların bəziləri, hətta anadangəlmə, lal, kar, kor, şikəst, qolsuz, qıçsız, əlsiz, əkiz şikəst və s. formada doğulurlar. Belə insanlara müasir dövrümüzdə daha həssas, daha qayğılı, maddi və mənəvi cəhətdən yanaşılmalıdır.



Əlil insanlar arasında incəsənətə meylli, sənət qabiliyyətli olanlar az deyil. Amma onların heç də hamısı öz qabiliyyətlərini üzə çıxarmaq və inkişaf etdirmək imkanı əldə etmirlər. Bəziləri illərlə istedad və bacarıqlarını daxildə saxlamağa məcbur olurlar. Ölkəmizdə də fiziki qüsurları olmasına rəğmən incəsənətin müxtəlif növləri ilə, rəssamlıqda, musiqi ilə yaxından məşğul olan, tanınan insanlar var. Böyük istedad sahibi, Azərbaycan Dövlət Radio və Televiziyasının Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının pianoçusu Zaur Rüstəmovu misal göstərmək olar.



Gözdən əlil olsa da, ilahi vergi olan istedadına, qabiliyyətinə arxalanan Z.Rüstəmov əsl sənətkar kimi yaşayır, yaradır, istedadını nümayiş etdirir. Eyni zamanda Bakı şəhər Mədəniyyət və Turizm İdarəsi Gözdən Əlil uşaqlar üçün 38 saylı 11 illik musiqi məktəbinin müəllimidir. Onun timsalında əlil insanların da bizdən biri olduğunu və onlara həyatda, sənətdə zəruri şərait yaradılmasının vacibliyini görürük.

Fiziki qüsurları olan, amma sənətə məhəbbəti aşıb-daşan, istedadlı insanları teatr səhnəsində də görmək olar. Bəzi ölkələrdə əlil aktyorların iştirakı ilə nəinki teatr, hətta balet tamaşaları da oynanılır və bu hamını heyrətə gətirir.



İ.Soltanın sözlərinə görə, bu təcrübə, yəni əlil uşaqların teatra cəlb olunması onların cəmiyyətə inteqrasiyasını xeyli sürətləndirir: «Biz bununla cəmiyyətə də nümayiş etdirmək istəyirik ki, fiziki qüsurları olan insanlar da bizimlə bərabərdirlər.

## Dövlət qayğısı

Ölkədə aparılan uğurlu siyasət, iqtisadi inkişaf xüsusi qayğıya ehtiyacı olan insanların həyat fəaliyyətlərinin yaxşılaşdırılmasına zəmin yaratmışdır. Fiziki qüsurlu şəxslərin cəmiyyətə və ictimai həyata inteqrasiyası, həmçinin digər insanlarla bərabərhüquqlu vətəndaş kimi yaşaması dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Azərbaycan dövlətçiliyinin təşəkkülündə, ölkə vətəndaşlarının, o cümlədən fiziki qüsurlu insanların hüquqlarının müdafiə olunmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolu olmuşdur. Ulu öndərin qayğısı sayəsində həyat fəaliyyətləri məhdudlaşmış vətəndaşlara daim diqqətlə yanaşılmış, onlar fərdi yaşayış evləri, yeni iş yerləri ilə təmin olunmuşlar.

Bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də fiziki cəhətdən qüsurlu insanlara daim diqqət və qayğı göstərmiş, onların cəmiyyətə inteqrasiyasının təmin edilməsi, məşğulluq səviyyələrinin artırılması, rifahlarının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atmışdır.

Son dövrlərdə əsaslı inkişaf yolu keçmiş ölkəmizdə dövlətin həyata keçirdiyi sosial, iqtisadi, mədəni siyasətin əsas prioritetləri sırasında məhdud fiziki imkanlı şəxslərə qayğı mühüm yer tutmaqdadır. Fiziki qüsurlu şəxslərin məşğulluq sahəsində hüquqlarını qorumaq, eləcə də onların cəmiyyətə sosial-iqtisadi inteqrasiyasını təmin etmək məqsədilə bir sıra addımlar atılmışdır.

**“Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikası Qanunu”**na əsasən əlillər anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxslər hesab olunurlar. Başqa sözlə desək, belə insanlar özlərinə xidmət, hərəkət, ünsiyyət və davranışlarına nəzarəti, habelə istənilən əmək fəaliyyəti ilə

məşğul olma imkanını tamamilə, yaxud da qismən itirmiş insanlardır.

Respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsini, eləcə də ictimai həyatın bütün sahələrində iştirakını təmin etmək məqsədilə dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilməkdədir.

Bu gün ölkədə həyat fəaliyyətləri məhdudlaşmış insanların təhsili, onların peşə hazırlığı müxtəlif formalarda həyata keçirilir. Artıq əminliklə demək olar ki, ölkədə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almalarına tam şəkildə şərait yaradılmışdır. Buna ən bariz nümunə 2001-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən **"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında" Azərbaycan Respublikasının Qanunu"**nun qəbul olunmasıdır.

2005-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyində "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı (2005-2009)" hazırlanmışdır. Həmçinin 2005-2006-cı illərdə UNESCO-nun maliyyə dəstəyi ilə sağlamlıq imkanları məhdud olan uşaqlarla "İnkluziv təhsil" layihəsi həyata keçirilmişdir. Qeyd edək ki, layihəni Təhsil Nazirliyi, Təhsildə İslahatlara Yardım Mərkəzi və UAFA (United Aid for Azerbaijan) təşkilatı reallaşdırmışdır.

Bütün bunlarla yanaşı təhsil ocaqları, eləcə də, digər tədris müəssisələri sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin məktəbəqədər təlim-tərbiyəsini, dərsdən kənar vaxtlarda tərbiyəsini təmin edir, eləcə də, xüsusi bacarıq və istedada malik olan fiziki qüsurlu uşaq və yeniyetmələrin ümumi tədris müəssisələrində pulsuz dekorativ-tətbiqi sənətlərə yiyələnməsi üçün bir sıra layihələrlə çıxış edirlər.

Heydər Əliyev siyasi kursunun davamı olaraq Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin imzaladığı bir sıra fərman və sərəncamlarla əlil və şəhid ailələrinin sağlamlığının və mənzil şəraitinin yaxşılaşdırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən

vətəndaşlar üçün şəraitin yaradılması, onların hüquq və azadlıqlarının müdafiəsi işi həyata keçirilir.

Bu gün ölkəmizdə fiziki qüsurlu insanların yaradıcılığı, asudə vaxtlarından düzgün istifadə, eləcə də idman və bədən tərbiyəsi sahəsində də mühüm addımlar atılmaqdadır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Milli Paralimpiya Komitəsinin yaradılması ilə fiziki çatışmazlıqları olan gənclərin idmana cəlb edilməsi, onların dünyada keçirilən beynəlxalq yarışlarda, paralimpiya oyunlarında iştirakına bilavasitə şərait yaradılmışdır. 2000-ci ildə Sidneydə keçirilən olimpiadada idmançılarımız qızıl, gümüş və bürünc medallara layiq görülmüşlər.

Sağlamlıq imkanları məhdudlaşmış gənclərin cəmiyyətə inteqrasiyası və istedadlarının aşkara çıxarılaraq lazımi şəraitin yaradılması sahəsində də müəyyən işlər görülmüş, 1997, 2000, 2003, 2006-cı illərdə fiziki çatışmazlıqları olan şəxslərin sərgi müsabiqələri, 1998, 2001, 2004 və 2007-ci illərdə bədii-yaradıcılıq baxış müsabiqələri və 1999, 2005-ci illərdə isə idman oyunları üzrə yarışları keçirilmişdir.

Həyat fəaliyyətləri məhdudlaşdırılmış uşaq, yeniyetmə və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsində Heydər Əliyev Fondunun da əvəzsiz xidmətləri vardır. 2005-ci ildə BMT-nin İnkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında “Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi”nə dair əməkdaşlıq sazişi və layihə sənədi imzalanmışdır. Layihənin əsas məqsədi fiziki qüsurlu insanların cəmiyyətdə fəal iştirakına, İKT vasitəsi ilə məlumat əldə etmək və biliklərini artırmaq imkanlarının genişləndirilməsinə kömək göstərmək idi. Məhz bu layihənin davamı olaraq Heydər Əliyev Fondu məhdud fiziki imkanlı şəxslərin İKT-dən istifadəsini artırmaq məqsədilə 2010-2012-ci illərdə Naxçıvan MR, Gəncə və Yevlaxda regional informasiya mərkəzləri yaratmışdır.

# Ədəbiyyat

## Kitablar


**1999**

**1.Əlillərin, aztəminatlı ailələrin və yetim uşaqların sosial müdafiəsi haqqında qanunvericilik** /burax. məs. Ş.Xuduoğlu; red.: F.Ağazadə.- Bakı: Qanun, 1999.- 220 s.

**2001**

**2.Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət əlil təşkilatlarının kataloqu** /LOTOS Əlil Təşkilatları Birliyi; Novib /Oxfam GB.-Bakı: [s. n.], 2001.-72, [2] s.

**2002**

**3.Cəfərov, İ.** Azərbaycan Respublikasında təqaüdçülərin, veteranların, əlillərin və şəhid ailələrinin hüquqları /İlqar Cəfərov, İmran Vəliyev, Elxan Əsədov; İqtisadi-hüquqi Maarifçilik Mərkəzi.- Bakı, 2002.- 64 s.

**4.Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar** /BMT; tərc. ed. və haz. Lotos Əlil Təşkilatları Birliyi-Bakı: [s.n.],-2002.-75 s.

**2008**

**5.Əlillik etiketi** /LOTOS Əlil Təşkilatları Birliyi.- Bakı: [s.n.], 2001.- 6+7, [5] s. Əlilliyi olan insanların hüquqları: 31 yanvar 2008-ci il və 5 may 2008-ci il konfranslarının materialları /UNICEF unite for children; red. E.Süleymanova (Ombudsman); tərt. ed.: M.Mahmudov, F.Ağayev.- Bakı: [Azərb. Resp. İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)], 2008.- 150, [1] s.

**2010**

**6.2010-cu il** /tərt. ed.: Z.Əliyev, M.Mahmudov; red. E.Süleymanova; Azərb. Resp. İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).- Bakı: [Azərb. Resp. İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)], 2010.- 126, [1] s.

**2012**

**7.“Əlilliyi olan şəxslərin hüquqi statusu: mövcud problemlər və qarşıda duran vəzifələr” mövzusunda elmi-praktik konfransın materialları** /layihənin rəhbəri və red. V.Məmmədov; nəşrə haz. V.Həsənova [və b.] “Əlilliyi olan şəxslərin hüquqi statusu: mövcud problemlər və qarşıda duran vəzifələr”, elmi-praktik konfrans.-Bakı: Elm və təhsil, 2012.-154, [5] s.

**2013**

**8.Biz bunu bacardıq** /Əlil İdmançılara Dəstək Mərkəzi, Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası.- Bakı: QHT Nəşriyyatı, 2013.-17 s.

**2017**

**9.İmtiyazlı vətəndaşlar üçün qanunlar toplusu** / “Beynəlxalq Əlillər Cəmiyyəti” İctimai Birliyi; tərtibatçı T.B.Xudiyev; elmi red. L.F.Əhmədova; red. Ə.M.Babayev; dizayner Z.Məmmədov.-Bakı: Elm və təhsil, 2017.-207, [1] s.

**2018**

**10.Əlil vətəndaşların tibbi-reabilitasiyası və əmək fəaliyyətindəki imtiyazları:** insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 12) /Azərb. Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, “Vətən Müharibəsi Əlillərinə Kömək” İctimai Birliyi; tərtibat İ. Əhmədov; red. M.Məmmədov (ön söz əvəzi)].-Bakı: Adiloğlu, 2018.-93, [1] s.

**11.Əlillik qüsur deyil** /Azərb. Resp. Əmək və Əhalinin Müdafiəsi Nazirliyi; [tərc. F.Abbasov, ALBA EDİTİNG; layihənin rəh. S.Babayev; red. və layihənin koordinatoru P.İsmayılova; foto V.Əmrullayev [və b.]; dizayn N.Novruzov]. Disability is not inability.- Bakı: AR ƏƏSMN, 2018.-274, [6] s.

**12.Nə etməli, nə bilməli:** əlil qız və qadınlar üçün sağlamlıq haqqında yaddaş kitabı: əlil qadınların səhiyyə hüquqları /Azərb. Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərb. Resp. "Əlil Qadınlar" Cəmiyyəti (ƏQC); tərtibatçı F.Babayeva; red. M.Rəhimova.- C.2 Hüquqlarımızı bilməkdə bizə kömək edin!-Bakı: QHT Nəşriyyatı, Adiloğlu, 2018.-207, [3] s.: şək.

## Görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar uçün ədəbiyyat

**13.Aşıq Qərib:** [Dünya uşaq ədəbiyyatı inciləri] /Mixail Lermontov; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-26 s.

**14.Büllur başmaq:** [Dünya uşaq ədəbiyyatı inciləri] /Şarl Perro; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-21 s.

**15.Çin nağılları: Zəng; Yüz min ox:** [Dünya uşaq ədəbiyyatı inciləri] /burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-24 s.

**16.Əlcək; İki rəssam; İlin fəsilləri; Meyvələrin söhbəti; Qızımın hekayələri; Simnar; Xeyir və Şər; Yamaq; Türküstan gözəlinin hekayəti; Yuxu və külək:** [Elektron resurs] /layih. rəh. Ş.Qəmbərova; Mətni səsləndirdi Z.Dadaşova, C.Cəfərli; Jest dilinə tərc. et. K.Quliyeva, Ş.Sabirzadə; tərtibatçı A.Həsənov; Operator A.Hüseynova; Montaj A.Tağıyev;

Azərbaycan Mədəniyyət Nazirliyi, F.Köçərli adına Respublika uşaq kitabxanası.-Bakı: 2019.-DVD+; 13 sm.

**17.Hekayələr: Qələm; Yuxu və külək; Buz maşını; İki rəssam** /Mir Cəlal; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-24 s.

**18.Qızıl xoruz:** [Dünya uşaq ədəbiyyatı inciləri] /Aleksandr Puşkin; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-12 s.

**19.Meyvələrin söhbəti** /Məhəmməd Füzuli; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-14 s.

**20.Mərcanqulu əfsanəsi** /Xanımana Əlibəyli; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-28 s.

**21.Nağıllar: Xoruz; Məlikməmmədlə vəfalı atın nağılı** /burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-24 s.

**22.Nəsihətamiz hekayələr: Xeyir və şər; Şah və xidmətçi** /Nizami Gəncəvi; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-24 s.

**23.Nəsihətamiz hekayələr: Simnar; Kərpickəsən; İlin fəsilləri /**Nizami Gəncəvi; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-22 s.

**24.Ovçu Qasım** /Əbdürrəhim bəy Haqverdiyev; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova, Ş.Vəliyeva, Ə.Əsədzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Bərpanəşr" layihəsi çərçivəsində brayl əlifbası ilə çap olunmuşdur.-Bakı: "Renessans-A", 2019.-11 s.

## Dövri mətbuatda dərc edilmiş materiallar

### 2001

**25."Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında** Azərbaycan Respublikasının Qanunu, 5 iyun 2001-ci il, № 136 //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.- Bakı, 2001.- 31 iyul.- №7.- S.1232-1242.

**26.Samirə rəsmlərini ayaqla çəkir** /Rəhilə Misirxanlı //Azərbaycan**.-**2001.- 8 dekabr. - S.6.

### 2003

**27.Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu:** (25 avqust 1992-ci il, № 284).- Bakı: Qanun, 2003.- 23 s.

### 2005

**28.Nağıyev, F.** Gözdən əlil olanlar üçün "Danışan kitabxana" açılmışdır /Fikrət Nağıyev//Azərbaycan.- 2005.- 17 aprel.- S.6.

**2008**

**29.Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyində əlil insanların hüquqları haqda konvensiya və bu konvensiyaya əlavə protokolun imzalanması münasibətilə tədbir keçirilmişdir** /Şəfəq Akifqızı //Azərbaycan.- 2008.- 11 yanvar. - S.1.

**30."Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində**": Azərbaycan Respublikasının Qanunu: (2 oktyabr, 2008-ci il) //Azərbaycan.- 2008.- 15 noyabr.- S.4.

**31.Quliyev, L.** Əlil qadınların əl işləri nümayiş etdirilir /Lazım Quliyev//Azərbaycan.-2008.- 18 yanvar.- S.5.

**2009**

**32.Cəfərli, R.** Mərhəmət işığında: Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük himayəsi sayəsində kimsəsiz uşaqlar cəmiyyətə layiqli vətəndaşlar kimi yetişirlər /R.Cəfərli //Azərbaycan.- 2009.- 31 yanvar.- S.3.

**33.Heydər Əliyev Fondu əlil insanların informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının artırılması məqsədilə yeni layihə həyata keçirir** /Azərtac //Azərbaycan.- 2009.- 2 may.- S.3.

**34.Xilas edilmiş uşağın təbəssümü naminə:** Əlil uşaqlar üçün layihələrin əksəriyyəti Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir //Azərbaycan.- 2009.- 2 may.- S. 5.

**35.Qurbanqızı, Z.** Əlil uşaqların cəmiyyətə inteqrasiyası artır: 2009-cu il Uşaq ilidir /Zümrüd Qurbanqızı //Respublika.- 2009.- 17 iyul.- S.6.

**36.Məmmədov, N.** Əlil insanların hüquqlarının qorunması, onların sosial müdafiəsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir /Natiq Məmmədov //Respublika.-2009.- 19 aprel.- S.5.

**37.Nəbioğlu, A.** Əlil arabası ilə də oxuyaram, bircə ölməyim /A.Nəbioğlu //Olaylar.-2009.- 28 sentyabr.- S.11.

**38.Səfərova, S.** Gözdən əlil yeniyetmə şairlər sevincli anlar yaşadılar /Sifai Səfərova //Azərbaycan müəllimi.-2009.- 27 noyabr.- S.8.

**39.Səlimqızı, C.** Həyat eşqi vücudlarından böyük olanlar Əlil Uşaq və Yeniyetmələrin İnteraktiv Tamaşaların IV Milli Festivalı keçirildi /Cəvahir Səlimqızı //Mərkəz.- 2009.- 17 dekabr.- S.11.

**40.Şükürov, F.** Əlil və kimsəsiz uşaqların rəsm əsərlərinin satış sərgisi /F.Şükürov //Mədəniyyət.- 2009.- 20 fevral.- S.14.

**41.Türkiyədə dünya əlillərinin gözəllik müsabiqəsi keçirilib** //Yeni həyat.-2009.- 14-20 mart.- S.3.

## 2011

**42.Mənsimov, E.** Əlil olanda nə olar?: Əlillər cəmiyyətə inteqrasiya etmək istəyirlər /Elgün Mənsimov //Kaspi.- 2011.- 12 iyul.- S.6.

**43.Nizamiqızı, G.** Əlillik və incəsənət: Fiziki qüsurlu, lakin fitri istedadlı insanların teatrda çalışması, operada çıxış etməsi mümkündürmü? /G.Nizamiqızı //Mədəniyyət.- 2011.- 12 yanvar.- S.12.

## 2012

**44.Sadıqlı, F**. Dünyanı qəlbi ilə görən, yaxud qaranlıqla işığa doğru: 13 noyabr Beynəlxalq Gözdən Əlillər Günüdür /F.Sadıqlı //Azərbaycan.- 2012.- 13 noyabr.- S.8.

## 2013

**45.Heydər Əliyev Fondu və UNDP-nin fiziki qüsurlu insanlar ilə bağlı layihələrinin 2013-cü ildə də davam etdirilməsi barədə fikir mübadiləsi aparılmışdır** //Azərbaycan.-2013.- 12 fevral.- S.2.

**46.Vəliyev, M.** Əlil vətəndaşlar cəmiyyətimizin bərabər-hüquqlu üzvləridir /M.Vəliyev //Respublika.- 2013.- 3 dekabr.- S.9.

## 2014

**47.Abdullayev, S.** "Gözdən əlillər qayğı ilə əhatə olunurlar": 3 dekabr Beynəlxalq Əlillər Günüdür /S.Abdullayev //Respublika.- 2013.- 3 dekabr.- S.9.

**48.Abdullayeva, Z.** Sağlamlıq imkanları məhdud olan insanlara qayğı artır: 3 dekabr Beynəlxalq Əlillər Günüdür /Z.Abdullayeva //Respublika.- 2014.- 3 dekabr.- S.5.

**49.“Hörmətli yeriyən insanlar, bizi barmaqla göstərib, təəccüblə baxmayın!”** /Ə.Heydərov; müsahibəni apardı X.Sadıqova //Zaman.-2014.- 23 sentyabr.- S. 7.

**50.Mənsimov, E.** Əlillərin cəmiyyətə inteqrasiyasında Gözdən Əlillər Kitabxanası mühüm rol oynayır /E.Mənsimov //Azərbaycan.- 2014.- 2 noyabr.- S.7.

## 2015

**51.“Əlil vətəndaşlar cəmiyyətimizin bərabərhüquqlu üzvləridir”** //Yeni Azərbaycan.- 2015.- 4 dekabr.- S.5.

**52.Əlillik hər şeydən məhrum olmaq deyil:** I Avropa Oyunlarını işıqlandıran əlil fotoqraf İlham Məhərrəmov: “Bu Oyunlarda iştirak etməklə neçə-neçə əlil insanı cəmiyyətdə yer tutmağa ruhlandıracağam”//Ekspress.- 2015.- 4-6 iyul.- S.9.

**53.Fiziki qüsur istedad üçün əngəl deyil** //Mədəniyyət 2015.- 9 dekabr.- S.6.

**54.“Mədəni sərvətlərdən aztəminatlı əhali, əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, müharibə iştirakçıları tərəfindən güzəştli istifadə Qaydası”nın təsdiq edilməsi barədə:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, №287; 20 avqust 2015-ci il //Azərbaycan.- 2015.- 28 avqust.- S.1.

**55.Məmmədov, M.** Gözdən əlillər üçün kitabxana /M.Məmmədov //Ekspress.- 2015.- 20 oktyabr.- S.10.

**56.Rəşad, R.** Əlillər arasında maarifləndirmə /R.Rəşad //Ekspress.-2015.- 15 yanvar.- S.9.

## 2016

**57.Fiziki qüsurlu uşaqların sənət sevgisi:** İctimai birlik mədəniyyət ocaqlarına təşəkkür edir //Mədəniyyət.-2016.-30 mart .- S.15.

## 2017

**58.Nitq və eşitmə qüsurlu insanlar da filmlərimizə baxa biləcək…** /İ.Sarıyeva //Bakı xəbər.-2017.- 1 noyabr.- S.7.

**59.Rəsulov, T.** "Bundan sonra da biz onların yanında olacağıq": Fiziki qüsurlu insanların özlərini realizə etmələri üçün "İcma Teatrı" ən ideal məkandır /Tərlan Rəsulov; müsahibəni apardı: X.Rəis //Kaspi.-2017.- 19 yanvar.- S.11.

## 2018

**60."Əlillik qusur deyil":** Kitab-Albomun təqdimatı olub //İki sahil.-2018.- 4 dekabr.- S.4; Azərbaycan.- 4 dekabr.- S.3.

**61.Onları cəmiyyətin bərabərhüquqlu fərdləri kimi görməliyik:** Xüsusi istedadı, yaradıcılıq qabiliyyəti olan fiziki qüsurlu insanlarla görüş //Mədəniyyət.- 2018.- 27 iyul.- S. 4.

## 2019

**62."Əlillik qusur deyil":** Kitab-Albomun təqdimatı olub //Həftə içi.-2019.- 31 yanvar.- S.7.

# Rus dilində

## Статьи периодической печати

## 2006

**63.Коновалова, М.П.** Инвалид – общество – библиотека: учебно-методическое пособие /М.П.Коновалова.- Москва: Либерея-Бибинформ, 2006.- 136 с.

## 2011

**64.В Баку прошла выставка работ детей – инвалидов** //Ежедневные новости.- 2011.- 9 декабря.- С.10.

## 2012

**65.Состоялось открытие мини-лаборатории, подаренной Фондом Гейдара Алиева инвалидам по зрению** //Бакинский рабочий.- 2012.- 14 сентября.- С.3.

## 2014

**66. Общественное объединение “Талантливые инвалиды” провело первую пресс-конференцию** //Бакинский рабочий.- 2014.- 21 июня.- С.4.

## 2015

**67.Помощь-по всем направлениям** //Азербайджанские известия.- 2015.- 5 февраля.- С.1.

**İnternet resursları:**

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az

# ƏLİLLİK QÜSUR DEYİL

**Kompüter yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 01
Çapa imzalanmışdır:20.11.2019
Tirajı:100
Pulsuz.